# "Yaşıl Marafon" çərçivəsində payız ağacəkmə aksiyalarına start verilib








Noyabrın 2-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın iştirakı ilə Bakıda "Ümumrespublika Yaşıllaşdırma Marafonu"nun ("Yaşıl Marafon") payız mövsümü üzrə ilk ağacəkmə aksiyası keçirilib.

AZƏRTAC xəbər verir ki, ağacəkmə aksiyası zamanı gənc könüllülərin iştirakı ilə Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun 300 zeytun və şam ağacı əkilib. Aksiyaya həmçinin Azərbaycanda səfərdə olan vəhşi təbiətin mühafizəsi üzrə İsveçrədə fəaliyyət göstərən "Bioparc Geneve" Təşkilatının nümayəndələri qoşulublar.

IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə həyata keçirilən "Yaşıl Marafon" kampaniyası çərçivəsində ölkənin müxtəlif regionlarında yaz-payız əkin mövsümlərində kütləvi ağacəkmə aksiyaları təşkil olunur.

Qeyd edək ki, ötən il "Yaşıl Marafon" çərçivəsində ölkə üzrə 1 milyon ağac əkilməsinə nail olunub. 2022-ci ildə daha çox sayda ağac əkilməsi ilə bərabər, digər irimiqyaslı yaşıllaşdırma işlərinin aparılması da nəzərdə tutulur.

Belə ki, bu ildən layihə çərçivəsində yaşıl dəhlizlərin yaradılmasına, mürəkkəb relyefli, sərt yamaclı ərazilərdə ağaclıqların salınması ilə terras tipli əkinlərin həyata keçirilməsinə başlanılıb. Layihənin əsas məqsədi yaşıllıq sahələrinin artırılması ilə yarana biləcək təhlükələrin qarşısını almaq, ağac əkilməsini təşviq edərək ətraf mühitin mühafizəsinə, o cümlədən ölkəmizin flora biomüxtəlifliyinin artırılmasına, yaşıllıqların qorunmasında maarifləndirilmə işinə töhfə verməkdən ibarətdir.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının 27-ci konfransı ərəfəsində təşkil olunan kütləvi ağacəkmələr, eyni zamanda iqlim dəyişikliyinə səbəb olan istixana qazı tullantılarının azaldılması ilə bağlı qlobal fəaliyyətlərə dəstək xarakteri daşıyır.

Ölkəmizdə yaşıllıqların mühafizəsi və artırılması səylərini bundan sonra da davam etdirmək niyyətində olan IDEA İctimai Birliyi öz tərəfdaşları ilə birgə ictimaiyyəti planetimizin mühafizəsi ilə bağlı mübarizədə, ətraf mühit naminə görülən tədbirlərdə aktiv iştirak etməyə çağırır.

Azərbaycan.- 2022.- 3 noyabr.- S.4.